# ƏDV-nin depozit hesabı altsisteminin

# İSTİFADƏÇİ TƏLİMATI

28.03.2013

## Mündəricat

1. GİRİŞ ..... 3
1.1. Məqsəd ..... 3
1.2. Məzmun ..... 3
1.3. Proqramın istifadəçiləri ..... 3
2. ƏDV-nin depozit hesabı menyusu ..... 3
2.1. Köçürmə əməliyyatlarının aparılması ..... 4
2.2.1. Digər sub-uçot hesaba köçürmə əməliyyatı ..... 5
2.2.2. Büdcəyə ödəniş əməliyyatı ..... 6
2.2.3. Naməlumdan digər sub-uçot hesaba köçürmə əməliyyatı ..... 7
2.2.4. Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə əməliyyatı ..... 7
2.2.5. İdxala görə ƏDV köçürməsi əməliyyatı ..... 8
2.2.6. Naməlum sub-uçot hesabdan idxala görə ƏDV köçürməsi əməliyyatı ..... 9
3. Köçürmə əməliyyatlarının hesabat-axtarışı ..... 10
4. Hesabdan çıxarış ..... 11

## Şəkillər

Şəkil 1. ƏDV-nin depozit hesabı pəncərəsi ..... 4
Şəkil 2. Digər sub-hesaba köçürmə ..... 5
Şəkil 3. Büdcəyə ödəniş ..... 6
Şəkil 4. Naməlum sub-uçot hesabdan digər sub-uçot hesaba köçürmə ..... 7
Şəkil 5. Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə ..... 8
Şəkil 6. İdxala görə ƏDV köçürməsi ..... 9
Şəkil 7. Naməlumdan idxala görə ƏDV köçürməsi ..... 10
Şəkil 8. Köçürmə əməliyyatlarının hesabat-axtarışı ..... 11
Şəkil 9. Hesabdan çıxarış pəncərəsi ..... 12
Şəkil 10. Hesabdan çıxarışın nəticəsi ..... 12

## 1. GİRİŞ

*"ƏDV-nin depozit hesabı"* altsistemi ƏDV üzrə yayınmaların qarşısının alınması və bu sahəyə avtomatlaşdırılmış nəzarətin həyata keçirilməsi üçün nəzərdə tutulur.

Bu sistem vasitəsilə vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülmə işlərinin yerinə yetirilməsi təmin olunur.

Təlimatda proqramın məqsədi, məzmunu və ondan istifadə qaydaları şərh edilir.

### 1.1. Məqsəd

Məqsəd *Alıcı* vergi ödəyicisi tərəfindən elektron vergi hesab fakturaları təqdim etmiş *Satıcı* vergi ödəyicisinin *ƏDV depozit sub-uçot hesabına* ödəmə əməliyyatlarının aparılmasını istifadəçilərə öyrədilməsidir.

### 1.2. Məzmun

Təlimat ƏDV ödəyicilərinin digər vergi ödəyicilərinin ƏDV sub-uçot hesablarına, dövlət büdcəsinə ödənişləri, idxala görə köçürmələri izah edir. Burada həmçinin köçürmə əməliyyatlarının hesabat-axtarışı, hesabdan çıxarış əməliyyatları da şərh olunur.

Vergi ödəyicisi İnternet Vergi İdarəsi portalından istifadə edərək ƏDV-nin sub-uçot hesabından aşağıdakı növ köçürmələri yerinə yetirir:

- *digər vergi ödəyicilərin sub-uçot hesablarına köçürmələri;*
- *dövlət büdcəsinə ödənişləri;*
- *idxala görə Dövlət Gömrük Komitəsinə köçürmələri.*

### 1.3. Proqramın istifadəçiləri

Proqram yalnız ƏDV ödəyiciləri üçün nəzərdə tutulmuşdur. Həmin vergi ödəyiciləri həmçinin vergi orqanında qeydiyyatdan keçməli istifadəçi kodu, parol və şifrəyə malik olmalıdırlar.

## 2. ƏDV-nin depozit hesabı menyusu

Alınmış vergi hesab-fakturasına əsasən *Alıcı vergi ödəyicisi* öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini *Satıcı vergi ödəyicisnin* ƏDV sub-uçot hesabına köçürür. Bu ödənişi aparmaq üçün vergi ödəyicisi vergi orqanından aldığı xüsusi parol-şifrə vasitəsilə

İnternet vergi idarəsinə (www.e-taxes.gov.az) daxil olmalı və *“ƏDV-nin depozit hesabı”* menyusunu tıklamalıdır. Bu menyu aşağıdakı alt menyulardan ibarətdir:

- *Köçürmə əməliyyatının aparılması*
- *Köçürmə əməliyyatlarının hesabat/axtarışı*
- *Hesabdan çıxarış*




Şəkil 1. ƏDV-nin depozit hesabı pəncərəsi

## 2.1. Köçürmə əməliyyatlarının aparılması

Köçürmə əməliyyatlarını aparmaq üçün *“ƏDV-nin depozit hesabı/Köçürmə əməliyyatlarının aparılması*” menyusunu icra etmək lazımdır. Əməliyyatı *Alıcı* vergi ödəyicisi aparır.

*Köçürmə əməliyyataları* ekranına daxil olduqda ödəyən müştərinin aşağıdakı məlumatları sistem tərəfindən avtomatik olaraq ekranda görüntülənir:

- *Sub-uçot hesabının qalığı;*
- *Naməlum sub-uçot hesabının qalığı;*
- *ƏDV borcu.*

Bu ekran vasitəsilə aşağıdakı əməliyyatlar aparıla bilər:

- *Digər sub-uçot hesaba köçürmə;*
- *Büdcəyə ödəniş;*
- *Naməlumdan digər sub-uçot hesaba köçürmə;*

- *Naməlumdan idxala görə ƏDV köçürməsi;*
- *Naməlumdan büdcəyə ödəniş;*
- *İdxala görə ƏDV köçürməsi.*

İstifadəçi yuxarıdakı əməliyyatlardan birini seçir.

Əməliyyat başa çatdıqdan sonra vergi ödəyicisinə köçürmənin aparılması barədə bildirişin çap edilməsi təklif edilir. *Satıcı Alıcıdan* həmin bildirişi tələb edə bilər.

### 2.2.1. Digər sub-uçot hesaba köçürmə əməliyyatı

Bu əməliyyat, qarşılıqlı əməliyyatlar zamanı alınmış vergi hesab-fakturasına əsasən *Alıcı vergi ödəyicisinin* öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini *Satıcı vergi ödəyicisnin* ƏDV sub-uçot hesabına köçürülməsi məqsədilə aparılır.

Bunun üçün *Alıcı* vergi ödəyicisi *"Digər sub-uçot hesaba köçürmə"* bəndini seçir və aşağıdakı məlumatları daxil edib **Qəbul** düyməsini basır:

- *Satıcının VÖEN-i*;
- *Ödənişin məbləğini;*
- *Ödənişin təyinatını.*

Bu əməliyyatdan sonra köçürülən məbləğ *Alıcı vergi ödəyicisinin* sub-hesabından *Satıcı vergi ödəyicisinin* sub-hesabına köçürülür.




Şəkil 2. Digər sub-hesaba köçürmə

### 2.2.2. Büdcəyə ödəniş əməliyyatı

Bu əməliyyat növü vasitəsilə vergi ödəyicisi ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi həyata keçirir.

Bunun üçün əməliyyat növündən *Büdcəyə ödəniş əməliyyatını bəndi* qeyd edilir. Siyahıdan *Alanın* qeydiyyatda olduğu xəzinə orqanı seçilir, *Ödənişin məbləği, Ödənişin təyinatı* daxil edilir və **Qəbul** düyməsi basılır. Nəticədə, daxil edilmiş məbləğ vergi ödəyicisinin sub-ucot hesabından büdcəyə köçürülür.

ƏDV üzrə büdcəyə olan borclar Qanunvericilikdə nəzərdə tutulmuş müddətdə ödənilmədiyi halda bu məbləğ, vergi ödəyicisinin sub-uçot hesabından avtomatik olaraq büdcəyə köçürülür.

Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə iş günü saat 11:30-dək ödəniş həyata keçirildiyi zaman həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Vergilər Nazirliyi tərəfindən ödəniş tapşırığı, həmin gün hazırlanıb banka təqdim olunur. Ödəniş saat 11:30-dan sonra olduqda isə həmin vəsaitin dövlət büdcəsinə göndərilməsi növbəti iş günündə həyata keçirilir.

Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə qeyri-iş günündə ödəniş həyata keçirildiyi zaman həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Vergilər Nazirliyi tərəfindən ödəniş tapşırığı, qeyri-iş günündən sonra gələn ilk iş günündə hazırlanıb banka təqdim olunur.




Şəkil 3. Büdcəyə ödəniş

### 2.2.3. Naməlumdan digər sub-uçot hesaba köçürmə əməliyyatı[1]

Bank vasitəsilə vergi ödəyicisi öz cari hesabından ƏDV məbləğini digər vergi ödəyicisinin sub-uçot hesabına köçürdüyü zaman ödəniş sənədində satıcı vergi ödəyicisinin VÖEN-i düzgün göstərilmədiyi və ya satıcı şəxs ƏDV ödəyicisi olmadığı hallarda köçürülən məbləğ alıcı vergi ödəyicisinin naməlum sub-uçot hesabına mədaxil edilir.

Bu əməliyytı etmək üçün əməliyyat *növündən "Naməlum sub-uçot hesabdan digər sub-uçot hesaba köçürmə"* bəndi qeyd edilir. Sonra *Alanın VÖEN-i, Naməlum ödənişin məbləği, Ödənişin təyinatı* daxil edilir və **Qəbul** düyməsi basılır.



Şəkil 4. Naməlum sub-uçot hesabdan digər sub-uçot hesaba köçürmə

Bu əməliyyatdan sonra naməlum sub-uçot hesabdakı məbləğ *Alan* (ödənilən) tərəfin sub-uçot hesabına köçürülür.

### 2.2.4. Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə əməliyyatı[1]

Bank vasitəsilə vergi ödəyicisi öz cari hesabından ƏDV məbləğini digər vergi ödəyicisinin sub-uçot hesabına köçürdüyü zaman ödəniş sənədində satıcı vergi ödəyicisinin VÖEN-i düzgün göstərilmədiyi və ya satıcı şəxs ƏDV ödəyicisi olmadığı

[1] Naməlum sub-uçot hesabdan köçürmə bəndləri yalnız vergi ödəyicisinin naməlum sub-hesabına vəsait daxil olduğu halda aktivləşir

hallarda köçürülən məbləğ alıcı vergi ödəyicisinin naməlum sub-uçot hesabına mədaxil edilir.

Bu köçürmə üçün əməliyyat növündən *"Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə"* bəndi qeyd edilir. Sonra *Xəzinədarlıq orqanının adı* siyahıdan seçilir , *Ödənişin məbləği, Ödənişin təyinatı* daxil edilir və **Qəbul** düyməsi basılır.




Şəkil 5. Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə

Nəticədə, naməlum sub-uçot hesabdakı məbləğ büdcəyə köçürülür və həmin məbləğ istifadəçinin şəxsi hesab vərəqəsinə də (ŞHV-yə) qeyd olunur.

### 2.2.5. İdxala görə ƏDV köçürməsi əməliyyatı

Bu əməliyyat növü ilə ƏDV sub-uçot hesabından idxala görə ƏDV köçürməsi ödənişi həyata keçirilir.

Bunun üçün əməliyyat növündən *"İdxala görə ƏDV köçürməsi"* bəndi qeyd edilir. Sonra *Alanın VÖEN-i* siyahısından müvafiq Gömrük İdarəsı seçilir, *Ödənişin məbləği* və *Ödənişin təyinatı* daxil edilir və **Qəbul** düyməsi basılır.




Şəkil 6. İdxala görə ƏDV köçürməsi

Yuxarıdakı əməliyyatdan sonra daxil edilmiş məbləğ vergi ödəyicisinin sub-ucot hesabından *Gömrük İdarəsinin hesabına* köçürülür.

### 2.2.6. Naməlum sub-uçot hesabdan idxala görə ƏDV köçürməsi əməliyyatı[2]

Bank vasitəsilə vergi ödəyicisi öz cari hesabından ƏDV məbləğini digər vergi ödəyicisinin sub-uçot hesabına köçürdüyü zaman ödəniş sənədində satıcı vergi ödəyicisinin VÖEN-i düzgün göstərilmədiyi və ya satıcı şəxs ƏDV ödəyicisi olmadığı hallarda köçürülən məbləğ alıcı vergi ödəyicisinin naməlum sub-uçot hesabına mədaxil edilir.

Bu köçürmə üçün Əməliyyat növündən *Naməlum sub-uçot hesabdan idxala ƏDV köçürmə bəndi* qeyd edilir. Sonra *Alanın* (Gömrük orqanının) *VÖEN-i* siyahıdan seçilir, *Ödənişin məbləği, Ödənişin təyinatı* daxil edilir və **Qəbul** düyməsi basılır.

[2] Naməlum sub-uçot hesabdan idxala görə köçürmə bəndi yalnız vergi ödəyicisinin naməlum sub-hesabına vəsait daxil olduğu halda aktivləşir




Şəkil 7. Naməlumdan idxala görə ƏDV köçürməsi

Bu əməliyyatdan sonra naməlum sub-uçot hesabdakı məbləğ Gömrük orqanının hesabına köçürülür.

## 3. Köçürmə əməliyyatlarının hesabat-axtarışı

Köçürmə əməliyyatlarının hesabat-axtarışı menyusunun köməkliyi ilə vergi ödəyicisi aşağıdakı növ əməliyyatlar barədə müxtəlif kriteriyalar üzrə hesabatlar əldə edə bilər:

- *VÖEN-ə görə;*
- *Bildiriş nömrəsinə görə;*
- *Mədaxil, məxaric əməliyyatları üzrə;*
- *Məbləğ üzrə;*
- *Tarix üzrə.*

*VÖEN-ə görə* hesabat əldə etmək üçün *VÖEN* xanasına nömrə daxil edilir.

*Bildiriş nömrəsinə görə* hesabat əldə etmək üçün *Bildiriş* xanasına nömrə daxil edilir.

*Mədaxil, məxaric əməliyyatları üzrə* hesabat əldə etmək üçün *Mədaxil, Məxaric* vəziyyətlərindən biri və ya hər ikisi qeyd edilir.

*Məbləğ üzrə* hesabat əldə etmək üçün *Məbləğ* xanasına məbləğ daxil edir.

*Tarix üzrə* hesabat əldə etmək üçün tarix aralığı daxil edilir.

Bütün bu əməliyyatların sonunda **Axtar** düyməsi basılır.




Şəkil 8. Köçürmə əməliyyatlarının hesabat-axtarışı

**Qeyd:** Bu axtarış kriteriyaları kombinə şəklində istifadə oluna bilər.

## 4. Hesabdan çıxarış

Hesabdan çıxarış menyusu vasitəsilə vergi ödəyicisi müəyyən tarix intervalında sub-ucot hesabı üzrə apardığı əməliyyatlara baxa bilər.

Bunun üçün tarix intervalı daxil edilir və **Axtar** düyməsi basılır.


Bəyannamə - Mozilla Firefox

http://10.22.12.90:8090/vedop2/ebyn/dispatch

e-Bəyannamə | ƏDV depoziti hesabı | Məlumat axtar | Dəyişiklik | Etibarlı çıxış

Hesabdan çıxarış

(manatla)

| Ödəyən müştəri | | | | | |
|---|---|---|---|---|---|
| VÖEN-i | Adı | Sub-uçot hesabın qalığı | Naməlum sub-uçot hesabın qalığı | Büdcəyə ƏDV borcu (əsas) | Büdcəyə ƏDV borcu (m/s) |
| 9900001881 | AZƏRBAYCAN BEYNƏLXALQ BANKI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ | 22852.23 | 2674.58 | 0.00 | 0.00 |

Tarix 09.09.2011 dan 09.09.2011 dək

Axtar | İmtina

Done

Şəkil 9. Hesabdan çıxarış pəncərəsi

Nəticədə aşağıdakı formada hesabat ekranda əks olunur:


Bəyannamə - Mozilla Firefox

http://172.16.60.15:8090/vedop2/ebyn/dispatch

ƏDV sub-uçot hesabından
ÇIXARIŞ

01.10.2010 14:56:09

| | |
|---|---|
| VÖEN | 2000116161 |
| Adı | AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASI NEFT-KİMYA PROSESLƏRİ İNSTİTUTUNUN TƏCRÜBƏ- SƏNAYE ZAVODU |

| | | | |
|---|---|---|---|
| Tarix | 01 . 01 . 2010 | Saldo | 15075.50 manat |

| Sıra №-si | Əməliyyatın tarixi | VÖEN | Vergi ödəyicisinin adı | Mədaxil (manatla) | Məxaric (manatla) | Ödənişin təyinatı |
|---|---|---|---|---|---|---|
| 1 | 08 . 02 . 2010 | 0200003621 | Naxçıvan MR DGK | 0.00 | 20.39 | 143490 - Digər m/s |
| 2 | 08 . 02 . 2010 | 0200004671 | Naxcıvan şəhər Maliyyə Şöbəsi | 0.00 | 10.25 | 114311 - Daşımalar üzrə hüquqi şəxslər |
| 3 | 08 . 02 . 2010 | 0300003761 | Babək YXO | 0.00 | 12.00 | 114111 - ƏDV |
| 4 | 08 . 02 . 2010 | 0400003361 | Ordubad YXO | 0.00 | 7.99 | 143412 - Muzdlu işlə olmayan m/s |
| 5 | 08 . 02 . 2010 | 0500009191 | Sədərək YXO | 0.00 | 4.32 | 143460 - Aksiz m/s |
| 6 | 08 . 02 . 2010 | 0600012141 | Culfa YXO | 0.00 | 9.12 | 111112 - PSA və xarici subpod. g/v |
| 7 | 08 . 02 . 2010 | 0700025021 | Şərur YXO | 0.00 | 5.00 | 113110 - Torpaq vergisi |
| 8 | 08 . 02 . 2010 | 0800005821 | Şahbuz YXO | 0.00 | 32.99 | 113120 - Kənd təs.torpaq vergisi |
| 9 | 08 . 02 . 2010 | 0900000241 | Kəngərli YXO | 0.00 | 41.89 | 114970 - Sair (mədən) |
| 10 | 08 . 02 . 2010 | 1700894821 | "NARD İNTEGRATİON TECHNOLOGİES" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | 0.00 | 20.36 | 1554 |
| 11 | 06 . 05 . 2010 | 0200003621 | Naxçıvan MR DGK | 0.00 | 12.36 | 114111 - ƏDV |
| 12 | 06 . 05 . 2010 | 1400672561 | BEYNƏLXALQ İSLAM NİCAT TƏŞKİLATI | 0.00 | 100.39 | KƏ 123 |
| 13 | 06 . 05 . 2010 | 1401555071 | Dövlət Xəzinədarlığı Agentliyi | 0.00 | 11.00 | 111111 - Muzdlu işlə bağlı g/v |
| 14 | 23 . 08 . 2010 | 1401555071 | Dövlət Xəzinədarlığı Agentliyi | 0.00 | 200.00 | 114111 - ƏDV |
| 15 | 23 . 08 . 2010 | 1401555071 | Dövlət Xəzinədarlığı Agentliyi | 0.00 | 100.00 | 114111 - ƏDV |
| 16 | 03 . 09 . 2010 | 1400357481 | Bakı Baş Gİ | 0.00 | 2.30 | |
| 17 | 03 . 09 . 2010 | 1401555071 | Dövlət Xəzinədarlığı Agentliyi | 0.00 | 4.30 | 114111 - ƏDV |
| 18 | 03 . 09 . 2010 | 1700339901 | "AZERBAİJAN TECHNOLOGİES" FİRMASI | 0.00 | 10.30 | 22 |
| 19 | 20 . 09 . 2010 | 7700116921 | Xaçmaz Gİ | 0.00 | 10.30 | ?DV 18 HESAB 610 20.09.2010 IL |
| 20 | 23 . 09 . 2010 | 1000251171 | "AKA" ŞİRKƏTİ | 0.00 | 10.30 | f |
| | **Cəmi (dövriyyə)** | | | **0.00** | **625.56** | |

| | | | |
|---|---|---|---|
| Tarix | 01 . 10 . 2010 | Saldo | 14449.94 manat |

Done

Şəkil 10. Hesabdan çıxarışın nəticəsi